*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 73-83*

https://doi.org/10.62837/2026.5.73

**AYTƏN QƏZƏNFƏR QIZI ƏLIYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*
AMEA Mərkəzi Elmi Kitabxanasının
Biblioqrafiya şöbəsinin müdiri
E-mail: dissertant1@gmail.com
Orcid: 0009-0005-0028-6082
https://orcid.org/orcid-search/search?searchQuery=0009-0005-0028-6082

# MİR CƏLALIN YENİ ÜZƏ ÇIXARILMIŞ HEKAYƏLƏRİNDƏ BƏDİİ TƏFƏKKÜR VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

**Xülasə**

Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatında nəsr və ədəbiyyatşünaslıq sahələrinin inkişafına mühüm töhfələr vermiş çoxşaxəli yaradıcı şəxsiyyət kimi təqdim olunur. Məqalədə yazıçının yaradıcılığının ideya-estetik xüsusiyyətləri, hekayə janrına verdiyi töhfələr və onun bədii üslubunun əsas komponentləri kompleks şəkildə təhlil edilir.

Tədqiqat göstərir ki, Mir Cəlalın bədii yaradıcılığı milli folklor, klassik irs və müasir ədəbi təfəkkürün üzvi sintezinə əsaslanır. Onun hekayələri yığcam süjet quruluşu, tipik obrazların yaradılması, canlı və təbii dialoqlar, eləcə də ümumiləşdirici məzmunu ilə seçilir. Yazıçı həm praktik yaradıcılığında, həm də nəzəri əsərlərində hekayə janrının struktur xüsusiyyətlərini müəyyənləşdirmişdir.

Məqalədə xüsusi vurğulanır ki, Mir Cəlal yaradıcılığının aparıcı estetik kateqoriyalarından biri gülüş fenomenidir. Yazıçı yumor, satira və kinayə vasitəsilə sosial ziddiyyətləri, mənfi tipləri və dövrün ideoloji məhdudiyyətlərini incə bədii üsullarla tənqid etmişdir. Bu baxımdan onun hekayələrində tənqidi realizm ilə romantik səmimiyyətin vəhdəti müşahidə olunur.

Araşdırmada həmçinin müəllifin maarifçilik ideyaları, pedaqoji fəaliyyəti və müəllim obrazına xüsusi münasibəti ön plana çəkilir. Mir Cəlalın əsərlərində təhsil, ziyalı məsuliyyəti və milli-mənəvi dəyərlər mühüm tematik istiqamətlər kimi çıxış edir. Bundan əlavə, yazıçının uzun müddət nəşr olunmamış hekayələrinin üzə çıxarılması və onların ədəbi dövriyyəyə daxil edilməsi onun yaradıcılıq irsinin daha dolğun qiymətləndirilməsinə imkan yaradır. Bu nümunələr də Mir Cəlalın üslubunun sabitliyini, dilinin sadəlik və ifadəliliyini, eləcə də bədii gülüşün funksional rolunu təsdiqləyir. Nəticə etibarilə, Mir Cəlal Paşayevin yaradıcılığı XX əsr Azərbaycan nəsrinin inkişaf mərhələsində mühüm yer tutur və onun bədii-estetik konsepsiyası müasir ədəbiyyatşünaslıq üçün aktual elmi-praktik əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Mir Cəlal Paşayev, Azərbaycan ədəbiyyatı, XX əsr nəsri, hekayə janrı, bədii üslub, nəşr olunmamış hekayələr

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 73-83*

**Giriş.**

Azərbaycan ədəbiyyatının XX əsr mərhələsi milli bədii düşüncənin keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəldiyi, janr və üslub müxtəlifliyinin zənginləşdiyi bir dövr kimi səciyyələnir. Bu mərhələdə nəsr janrının, xüsusilə hekayəçiliyin formalaşması və inkişafı ədəbiyyatın ümumi estetik istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamışdır. Həmin prosesdə fərdi yaradıcılıq üslubu, milli ənənələrə bağlılıq və müasirlik meyillərini üzvi şəkildə birləşdirən sənətkarların fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan Mir Cəlal Paşayev yaradıcılığı Azərbaycan nəsrinin inkişaf dinamikasını izləmək, hekayə janrının poetik imkanlarını və estetik funksiyalarını müəyyənləşdirmək üçün zəngin elmi-bədii material təqdim edir. O, həm yazıçı, həm də ədəbiyyatşünas alim kimi milli ədəbi fikrin formalaşmasına mühüm töhfələr vermiş, bədii yaradıcılığında xalq təfəkkürü, klassik irs və müasir həyat reallıqlarını sintez etmişdir.

Mir Cəlalın hekayələri yığcamlıq, lakoniklik, obrazlılıq və canlı dil xüsusiyyətləri ilə seçilərək, Azərbaycan hekayəçiliyində özünəməxsus poetik model yaratmışdır. Yazıçının əsərlərində sosial gerçəklik, insan xarakterinin psixoloji qatları, eləcə də cəmiyyətin mənəvi problemləri incə yumor, satira və kinayə vasitəsilə ifadə olunur. Bu isə onun yaradıcılığını yalnız bədii deyil, həm də estetik-fəlsəfi baxımdan dəyərli edir.

Məqalənin əsas məqsədi Mir Cəlal Paşayevin hekayə yaradıcılığının ideya-məzmun xüsusiyyətlərini, bədii üslubunu, gülüş fenomeninin funksional rolunu və onun ədəbiyyatşünaslıq baxışlarını kompleks şəkildə təhlil etməkdən ibarətdir. Eyni zamanda, yazıçının uzun müddət nəşr olunmamış hekayələrinin araşdırılması əsasında onun yaradıcılıq irsinin yeni aspektlərini üzə çıxarmaq və Azərbaycan ədəbiyyatı tarixində tutduğu mövqeyi elmi əsaslarla müəyyənləşdirmək qarşıya məqsəd kimi qoyulur.

**Əsasə mətn.** Ədəbiyyatşünas alim, publisist və yazıçı Mir Cəlal Paşayev zəngin milli folklor irsi və canlı xalq təfəkkürünün formalaşdırdığı ənənələr zəminində yetişərək Azərbaycan ədəbi-bədii fikir tarixində, xüsusilə nəsr və publisistikanın inkişafında mühüm rol oynamışdır. Onun yaradıcılığı yalnız estetik dəyər daşımaqla kifayətlənməyib, eyni zamanda xalqın mənəvi kamilliyi və milli özünüdərkinin inkişafına xidmət edən ideya-estetik missiya ilə səciyyələnmişdir.

Yazıçı, əsl ziyalı mövqeyindən çıxış edərək, gənclik illərindən etibarən xalqının mədəniyyətini, ədəbiyyatını və dilini sistemli şəkildə mənimsəmiş, bu sahələrdə dərin bilik və yüksək erudisiya nümayiş etdirmişdir.

Onun vəfatından uzun illər keçməsinə baxmayaraq, Mir Cəlal Paşayevin yaradıcılığı milli şifahi xalq ədəbiyyatı, klassik irs və müasir bədii nəsrin qabaqcıl ənənələri əsasında formalaşmış kamil sənət nümunəsi kimi aktuallığını qoruyub

saxlayır. Bu baxımdan yazıçı həm mahir hekayə ustası, həm də roman janrının uğurlu nümayəndəsi kimi bu gün də oxucular tərəfindən maraq və rəğbətlə qarşılanır.

Mir Cəlalın kitabları – nəşr tarixi və təsnifatından göründüyü kimi, XX əsr kitab mədəniyyətinin arsenalını təmin edən əsərlərdəndir. Bu kitablar həm də Azərbaycan kitab nəşrinin, poliqrafiya işinin səviyyəsini əks etdirir. Tarix göstərir ki, Mir Cəlalın kitablarının kitab tariximizdə özünəməxsus dinamikası var. Kitabların ömrü və taleyi, canlılığı oxucu qənaətində, oxucu yaddaşında davam edir. Bu baxımdan Mir Cəlal Paşayev xoşbəxt sənətkardır. O, hər yeni gələn nəsillə yenidən doğulacaq, çünki hər nəsil onun kitablarında dövrünün onun qarşısında irəli sürdüyü suallara cavab tapacaq. Klassikin ölməzliyi, əbədiliyi və həmişə müasirliyi elə bundadır.

Mir Cəlal Paşayev öz elmi, bədii yaradıcılığının əsas məzmun və ideyası istiqamətlərində məkanın və zamanın sərhədlərini silib, ömürlər, dünyagörüşlər arasında bağ quran milli dil və ədəbi-bədii-elmi yaradıcılıq, sənətkar və sənət haqqındakı konseptual baxışları dolğun əks etdirir.

XX əsr Azərbaycan ədəbiyyatına nəzər saldıqda görürük ki, klassiklər sırasında nasirlər xüsusi yer tutur. Böyük yazıçı C.Məmmədquluzadə ilə başlayan bu pleyadaya Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, S.Rəhimov, M.İbrahimov, Ə.Vəliyev, İ.Əfəndiyev, M.Hüseyn, İ.Şıxlı, İ.Hüseynov, Anar, Elçin, İ.Məlikzadə, S.Əhmədli, F.Kərimzadə, S.Azəri, S.Səxavət... daxildir. Bu möhtəşəm sırada Mir Cəlal Paşayevin öz bənzərsiz yeri, ədəbi-elmi bədii-tarixi çəkisi var. XX əsrin nasirləri epik növün bütün əsaslarında – hekayə, povest və roman sahəsində böyük uğurlar əldə etmişlər. Bütün yazıçılarımız hekayə yazmaq - hekayənəvislik sahəsində öz qələmlərini sınamış, bir çoxları bədii yaradıcılığa məhz bu janrla başlamışlar. Azərbaycan hekayəsi ötən əsrdə zəngin inkişaf yolu keçmiş epos mədəniyyətimizin, nağıl və dastanlarımızın, əfsanə və rəvayətlərimizin bədii ənənələrini mənimsəyərək öz poetikasını, təsvir imkanlarını və üslubunu zənginləşdirmişdir. XX əsr Azərbaycan hekayəçiliyi sahəsində bir neçə ədibimiz xüsusilə fərqlənir: C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və Mir Cəlal. Bu mülahizə ilə biz heç də digər ədiblərimizin bu janr sahəsindəki uğurlarına kölgə salmaq istəmirik. S.Rəhimovun, M.İbrahimovun, İ.Əfəndiyevin, Anarın, Elçinin xüsusi bədii dəyərə malik seçilən hekayələri vardır. Klassik hekayənin peşəkar yaradıcıları Mirzə Cəlil, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və Mir Cəlaldır.

Mir Cəlal həm hekayənin gözəl nümunələrini yaratmış, həm də nəzəriyyəçi alim kimi P.Xəlilovla birlikdə yazdıqları "Ədəbiyyatşünaslığın əsasları" kitabında onun janr xüsusiyyətləri haqqında yazmışdır: "*Müasir, yeni, fəal realist bir janr olan hekayə quruluşca o qədər də mürəkkəb bir şəkil deyildir. Xarakterik bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb, müxtəlif şirin, sadə söyləmə, nəql etmə üsulu hekayə sənətində əsasdır*" [1, s.144]. Məhz bu cəhətlər Mir Cəlal hekayələrinin poetik özəlliyini səciyyələndirir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 5, 2026
Səh. 73-83

Müdrik təfəkkür sahibi olan yazıçının təkrarsız hekayələri vasitəsilə klassik ənənələrdən bəhrələnərək hekayə ustası kimi formalaşmasını izləmək mümkündür. Cəmiyyətin müxtəlif təbəqələrinə xas olan xarakterlərin təcəssümü hekayələrdə məharətli şəkildə öz əksini tapmışdır. Yazıçının hekayələrinə xas daha bir cəhət – olduqca səmimi yumor hissi, gülüş mədəniyyətimizin mənalı bədii əksi məsələsi ön plana çəkilir. Mir Cəlal hekayə yaradıcılığında daim gülüşün estetik imkanlarından bacarıqla istifadə etmişdir. Sovet dövrünün ədəbiyyat üzərində Marksist ideologiyanın müəyyən təzyiqlərini nəzərə alaraq ədib əsasən yumordan, ironik gülüşdən istifadə etmişdir. Yəni həlim və islahedici gülüş, yumor daha çox gizli mətləblərə yönəlmiş istehzalı, simvolik gülüş, kinayə yazının hekayələri üçün xarakterikdir.

Gülən adam güldüyü obyektdən yüksəkdə dayanmalıdır. Hansı formada olursa olsun gülüş böyük hünərdir, istedadın, şəxsiyyətin ən güclü özünü təsdiqidir. Yumor sağlam düşüncəyə sahib olmağa bir vəsilədir.

Mir Cəlalın həm çap olunmuş, həm də yazıçı qələminin məhsulu olan lakin 2021-ci ilə qədər çap olunmamış hekayələri məhz belə yumoristik-kinayəli gülüş zəmnində yazılmışdır. Kinayəli gülüş adi gülüş deyil, fəlsəfi gülüşdür. Ümumiyyətlə, gülüş xalq idrakının aydınlığını və dərinliyini ifadə edir. Gülüş mədəniyyəti kamillik mədəniyyətidir. Gülüş elə bir zirvədir ki, hər xalq, hər sənətkar o zirvəyə çıxa bilməz. Gülmək üçün səmimiyyət və saflıq lazımdır. Gülüş bəşəriyyətin sübh şəfəqidir.

Ciddi bir şəxsiyyət, ağır taxtalı bir kişi, saf və ləyaqətli azəri oğlu olan Mir Cəlalın hekayələri və bütün əsərləri belə bir gülüş zəmnində yazılmışdır.

1932-ci ildə gənc yazıçı olan Mir Cəlalın "Sağlam yollarda" adlı ilk hekayələr kitabı çap olunmuşdur. 1932-ci ildən 1978-ci ilədək 40 ilə yaxın bir dövrdə Azərbaycan ədəbiyyatının bənzərsiz hekayənəvisi Mir Cəlalın qələmi məhsuldar işlədi, heç zaman öz şəxsiyyətinə və bədii söz sənətinə xəyanət etmədi.

O, hekayə janrımızın, bütövlükdə ədəbiyyatımızın nüfuzunu qorudu, qalmaqallı XX əsrin qalmaqalsız ədibi, bütöv şəxsiyyət kimi ümumxalq hörməti qazandı. Mir Cəlalın yaradıcılığı haqqında sanballı monoqrafiyanın müəllifi, ədəbiyyatşünas Yaqub İsmayılov ədibi təhlil edərək yazmışdır: *"O, hər şeydən əvvəl, mahir hekayə ustasıdır. Sovet dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının inkişafında böyük xidmətlər göstərmişdir. İnsanda sağlam duyğular, xoş arzu, ümidlər oyadan, gerçəkliyə baxışda həqiqət işığı, tənqidi ruh və ayıqlıq hissi gətirən, haqsızlığa, nöqsan, eybəcərlik və mənfiliyə qarşı mübarizə keyfiyyəti aşılayan bədii gülüş ədibin yaradıcılığında mühüm tərkib hissə, əsas estetik əlamət və məziyyətlərdəndir*" [4, s.110].

Göründüyü kimi tədqiqatçı alim ədibin hekayələrində qabarıq görünən iki başlıca istiqaməti ön plana çəkir: gerçəkliyə baxışda həqiqət işığı, tənqidi ruh və gerçəkliyə qarşı mübarizə keyfiyyəti aşılayan bədii gülüş! Bu o deməkdir ki, tənqidi

realizmlə romantik səmimiyyət vəhdəti Mir Cəlal hekayələrinin poetik və estetik konsepsiyasını təşkil edir.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsində Mir Cəlal Paşayevin şəxsi arxivi çox aydın və sistemləşdirilmiş vəziyyətdə saxlanılır. Şəxsi arxivlə tanışlıq zamanı müəllifin ailə üzvləri ilə, dostları ilə məktublarını, romanlarının hekayələrinin əlyazmalar variantında, yazıçının xətti ilə olduğu kimi, orijinal vəziyyətdə oxumaq Mir Cəlal sevər üçün xüsusi bir hissdir.

Ədibin istər sağlığında, istərsə də ölümündən sonra çap olunan kitabları ilə 2017-ci ildə Milli Arxiv İdarəsində Mir Cəlal müəllimin şəxsi arxivində saxlanılan hekayələrlə tanış olduqdan sonra müqayisə zamanı və ən əsas da 2013-cü ildə çap olunan 5 cildliklə müqayisə etdikdən sonra araşdırma zamanı məlum oldu ki, müəllifin nəşr olunmayan 11 hekayəsi var. Bu hekayələr “Qayğı”, “Yanşaq”, “Zirəklik” [7], “Xallı muncuq”, “Ölü soyan” [6], “Ulduz kəndinin şəfəqləri”, “Tərpənir”, “Söylənməyən nitq”, “Sünbül”, “Sorağın gəlsin” [9], “Oturaqlar” [8] hekayələridir.

2021-ci ildə “Ədibin evi” tərəfindən “Qayğılar” adlı kitab çap edilmişdir. Bu kitaba daxil edilmiş “Qayğılar” romanı Elnur İmanbəyli, hekayələr isə mənim tərəfimdən Milli Arxiv İdarəsində üzə çıxarılmışdır. 1930-cu illərə aid olan bu əsərlər ilk dəfə kitab şəklində işıq üzü görmüşdür. “Qayğılar” romanı Azərbaycan kəndində kollektivləşmə prosesindəki təzadlardan bəhs edir. Kitaba daxil edilmiş hekayələrdə Mir Cəlalın bədii üslubunun səciyyəvi cəhətlərindən irəli gələn maraqlı əhvalatlar, gülüş doğuran hadisələr, tipik obrazlar və həyat lövhələri nəzərə çarpır [2].

Bu hekayələrdən bəzilərini sizin nəzərinizə çatdırmaq istəyirəm “Tərpənir” hekayəsində hekayə bir nəfərin dilindən danışılır: *“Səhər tezdən həmişəki kimi həyətdən müxtəlif səslər eşidilirdi. Kimisi gilas, kimisi göyərti, kimisi ərik satırdı. Bu səslər içərisində bir kişinin “tərpənir” var, “yaxşı tərpənir var” deməsi məni təəccübləndirdi. Düşündüm ki, yəqin təzə balıq gətiriblər. Pəncərədən boylandım ki,*

*– De görüm tərpənən nədir? niyə tərpənir? necə tərpənir? balıq neçiyədir?*

*Kişi dedi:*

*– Balıq yoxdu yoldaş!*

*– Təzə pənir gətirmişəm!*

*– Nə?*

*– Pənir? yəni təzə pendir.*

*– Tərpənir deyirsən biz də elə bilirik nəsə tərpənir.*

*Kişi matahını satıb həyətdən getdi, amma onun səsi hələ də mənim qulağımdadı”* [9].

3 səhifədən ibarət hekayədə satira ilə Naxçıvan dialektinə mənsub olan ləhcədən söhbət açılır.

Bu təkcə bir ləhcənin ifrat işlənməsinin tənqidi deyil, həm də dilə münasibətin tənqididir.

Olduqca lakonik novellaları – konkret və gözlənilməz sonluqla bitən bu hekayə bir qövmün xarakterini dəqiq səciyyələndirir.

Dünya ədəbiyyatında novellanın ən yaxşı nümunələrini məşhur "Dekameron" əsərində XIV əsrin italyan yazıçısı C.Bokaçço, fransız yazıçısı Mopassan, rus ədibi A.P.Çexov, Azərbaycan yazıçıları Ə.Haqverdiyev və Mir Cəlal yaratmışdır.

"Zirəklik" ədibin miniatür hekayələrindəndir. Onu novella da adlandırmaq olar. İncə yumorla yazılmış bu novella yazıçıya doğma bir mövzudadır. Novellada bir ədəbiyyat müəlliminin – Mehrəli müəllimin "Zirəkliyindən" bəhs olunur. Hekayə ədəbiyyat müəllimi işləyən yazıçının ciddi mülahizələri ilə başlayır: *"Zirəklik özü böyük bir qabiliyyətdir. Hər kəsdə olmaz. O adamın ki, zatında qoyulmayıb, ha çalışa, zirək ola bilməz. Lap bizim ədəbiyyat müəllimi ola. Bunun zirəkliyinin vəsf üçün bircə söhbət kifayətdir. Ədəbiyyat müəllimliyi də adamın allahı var, çox çətin işdir; qədimdən çətin işdir. Gərək yüzlərlə kitab oxuyasan, illah da indi; müəllim bir yazıçının tərcümeyi-halını keçənədək, bir də görürsən avtorun iki romanı çıxdı... Hardan alsın boş vaxtı ki, oturub cild-cild romanları oxusun"* [7]. Burada hələ gülüş, yumor yoxdur, yazıçının ədəbiyyat müəllimi haqqında xəfif eyhamlı mülahizələri var.

*"Mehralı müəllim belə bir fənd işlədir: yazıçı Bəxtiyarovun "Ağrılar" romanını tələbələrə oxudub sual-cavab yolu ilə onlardan romanın mövzusu, surət və tipləri, xarakteri, qəhrəmanın şəxsiyyəti, əsərin əsas ideyası, dili barəsində məlumat əldə edir. Birdən bir tələbə Mehralı müəllimə gözlənilməz sual verir: "Müəllim orada Nadir obrazı var ha, Nadir fəhlə sinfinin əleyhinədir, yoxsa lehinə?" Mehralı müəllim bu əngəl sualdan çaşır: "Mən səndən soruşuram: Nadir necə adamdır?*

*– Müəllim bilsəm sizdən soruşaram ki...*

*Müəllim üzünü tələbələrə tutdu:*

*– Yaxşı kim deyər, Nadir necə adamdır?*

*Uşaqlar cavab verdi ki, Nadir geridə qalmış adamdır. Müəllim dedi:*

*–Deməli Nadir fəhlə sinfinin ziddinədir."*

*Bu cavabla da romanın məzmunundan bixəbər olan Mehralı müəllim özünü möhkəm dolaşdırır.*

*"Ön cərgədən bir tələbə etiraz elədi:*

*– Yox müəllim Nadir fəhlə tərəfdarıdır, ancaq savadı yoxdur. Müəllim tələbələrə tünd baxdı.*

*Bəs mən deyirəm, kilsəyə söymürəm ki..."* [7].

Müəllimin zirəkliyi bununla bitmir. O "Ağrılar" romanı haqqında sizə məlum təhlillərini bir tələbəyə ""Ağrılar" romanı haqqında mülahizələrim" adlı məqalə tərzində yazdırıb çap üçün redaksiyaya göndərir. Yazıçı bu novella vasitəsilə həm təhsil sistemini lağa qoyur, həm də ziyalılıqdan uzaq, məsuliyyətsiz müəllimi tənqid edir. Verilən parçalardan da göründüyü kimi hekayənin dili sadə, lakonik və koloritlidir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 73-83*

Mir Cəlalın hekayələrində çox nadir hallarda mürəkkəb cümlələr işlənir, o sadə və obrazlı üslubun əvəzsiz ustasıdır. Yazıçının yaradıcılığının müvəffəqiyyətli cəhətlərindən biri də onun dilinin yorucu olmaması və dinamikliyidir. Müəyyən bir fikrin sadə və xırda cümlələrlə ifadəli verilməsi, dialoqların təbii ölçüdə, qayda ilə qurulması, nəhayət, danışığın tiplərə müvafiq və onlar üçün xarakterik olması onun dilinin bədii xüsusiyyətini təşkil edir.

30-cu illərin sonunda gənc yazıçının ilk əsərləri haqqında tənqidçi Orucəli Həsənovun uzaqgörənliklə yazdığı sözlər sonralar özünü doğrultdu: "Mir Cəlal, gənc nasirlərimiz arasında yoldaşlarına bənzəməyən müstəqil bir yazıçıdır. Oxucular Mir Cəlalı əsl sənət nümunələrilə daha da irəliləmiş, sosialist realizmi yollarında daha böyük müvəffəqiyyətlər əldə etmiş bir yazıçı kimi görmək istəyir" [4].

Mir Cəlal üslubunun, yaradıcılığının maraqlı nümunəsi olan və dolayısı ilə əmək, istehsalat mövzusunda yazılmış "Sünbül" hekayəsində əbədi yaddaşda qalan ecazkar uşaqlıq dövrünün sehrli romantikası ilə bərabər, sadəlik və təbiilik də var: *"İnsanın ən yaxın dostu, sirdaşı, uşaqlıq yoldaşıdır. Bu dostluğun heç bir başqa niyyəti, məqsədi olmur. Sünbül ilə bir məktəbdə, bir partada oturmuşuq. Bir müəllimdən dərs almışıq. Gündəlik normamızı bir yemişik, bir sevinmişik. Sünbüldən 10-12 yaşında ayrıldım..."* [9].

Mir Cəlal müəllimin yaşlı müasiri, XX əsr Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiq yazırdı ki, "Mən yazıçılığıma görə müəllimliyimə borcluyam". Bu sözləri Mir Cəlal barəsində də demək olar. Onun maarif, məktəb mövzusunda –yazdığı hekayələrinin qəhrəmanı məhz maarifpərvər ədibin özüdür. Dahi şairimiz M.Ə.Sabirə ithaf olunmuş "Ulduz kəndinin şəfəqləri" hekayəsi bu baxımdan nümunə ola bilər: *"Mən müəllimən, ömrümü uşaqlara dərs verməklə keçirmişəm. Özü də o yan-bu yana qaçmamışam. Həmişə bir kənddə – dağların qoynunda yerləşən - Ulduz kəndində işləmişəm.*

*Bəzi yoldaşlar oturub-durub öz peşəsindən narazlıq edirlər. Biri deyir müəllimlik ömür çürüdən şeydir, biri deyir uşaq ilə çənə-boğaz olmaq çətin peşədir, biri deyir indi uşaqlar dərs oxumur, üzə dururlar"* [9].

Mən müəllimliyə müqəddəs bir sənət kimi baxıram... Bu hekayənin bədii məziyyətlərindən çox, ideyası maraqlıdır. Müəllim peşəsinin, müəllim əməyinin lazımınca dəyərləndirilmədiyi, müəllim şəxsiyyətinin təkcə təhsildə yox, millətin tarixi taleyində mühüm əhəmiyyət kəsb etdiyi dövrümüzdə Mir Cəlalın bu tipli hekayələri müasirlik kəsb edir.

"Oturaqlar" hekayəsi təqaüdə çıxıb boş-bekar qalan, səhərdən-axşamadək idarədə oturub məsul işçi dostlarına göz-işıq verməyən, öz mənasız söhbətləri ilə baş ağrıdıb vaxt alan üzdəniraq insanların ifşasına həsr olunmuşdur. Hekayə Mir Cəlala məxsus kinayə və qəzəblə yazılmışdır [8].

"Sorağın gəlsin" Mir Cəlalın cəbhə hekayələrindəndir. Gözəl Şirvan elində böyük sevgi, səy və əsl müəllim kimi dərs deyən Hacıbaba müəllim bir yay məktəbi qo-

yub cəbhəyə getməli olur. Onu sevgilisi əvəz edir, Hacıbaba müəllimə layiq olmağa, onun şagirdlərini sevməyə başlayır. Hacıbaba Məmmədov da İsrafil Məmmədov kimi qəhrəmanlıq göstərir, zabit rütbəsinə yüksəlir [9].

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında işıq fəlsəfi məzmun daşıyan mənbəyi ilahidən gələn gözəl obrazdır. "Avesta" abidəsində, "Məlik Məmməd" nağılında, İşraqilik fəlsəfəsində (Sührəvərdi) işıq gözəllik, xeyir, nəciblik, mənəvi güc kimi vəsf olunmuşdur. Hürufilər "insan həqdən qopmuş nur parçasıdır" deyirlər. Mir Cəlal haqqında xatirələrin birində deyilir: *"Mir Cəlal müəllimi yaxından tanıyanların hamısı yaxşı bilir ki, o, işığı çox sevirdi. Həm öz evlərində, həm də qonaq getdiyi yerlərdə içəri girən kimi bütün otaqlarda işıqları yandırardı. Çünki işıq, nur onun qəlbində, varlığında yaşayırdı, əsas, dəyişməz hobbisi idi. Onun üçün ilahi gözəlliyin mənbəyi, varlığın əsası idi. O, yaxşı bilirdi ki, işıq, nur insana daxili hərarət, inam mənbəyi, gözəllik bəxş edir. İşıqsız, nursuz gözəllik həyatda təzahür etməzdi, gizli qalardı və insanlıq bu ülvi nemətdən, əvəzsiz zövq mənbəyindən həmişəlik məhrum olardı, bir bioloji varlıq kimi başqa canlılardan seçilməzdi, kor qalardı"* [3, s.60].

**Nəticə.** Fikrimizcə, Mir Cəlal Paşayev yaradıcılığının əsasını təşkil edən sadəlik və müdriklik prinsipləri onun bədii, elmi və pedaqoji fəaliyyətinin ideyamənbəyini müəyyənləşdirir. Bu fəaliyyət öz enerjisini maarifçi və humanist işıqdan alaraq cəmiyyətin mənəvi zülmətini aradan qaldırmağa, onu idraki və etik kamilliyə yönəltməyə xidmət edir. Müəllifin çap olunmamış hekayələri də məhz bu estetik və ideya xəttinin davamı kimi sadəlik işığında qələmə alınmışdır.

Mir Cəlal bütöv və prinsipial yaradıcılıq mövqeyi ilə seçilən yazıçı kimi, sovet ideoloji məhdudiyyətlərinə baxmayaraq, əsərlərində vətənin və xalqın mənəvi-əxlaqi problemlərini obyektiv şəkildə əks etdirmişdir. Onun bədii dili sadə, səmimi, lakin eyni zamanda yığcam və məzmun etibarilə zəngindir; bu xüsusiyyətlər mətni oxucu üçün anlaşıqlı edir və onun emosional dünyasına birbaşa təsir göstərir.

Ədib Azərbaycan gülüş mədəniyyətinin müxtəlif formalarından – yumor, satira və kinayədən – yüksək sənətkarlıqla istifadə etmişdir. Bu vasitələr onun hekayələrində xüsusi estetik aura yaradaraq cəmiyyətdəki mənfi halların və tiplərin tənqidini gülüş prizmasında təqdim edir. Nəticədə, müəllif oxucu ilə səmimi ünsiyyət mühiti formalaşdırır; hekayə sanki canlı dialoq təsiri bağışlayır, müəllif oxucunu özünə həmsöhbət etməyi bacarır.

Mir Cəlal güldürə-güldürə düşündürən hekayələri, məzmun və formaca zəngin romanları, mənalı və şərəfli elmi-pedaqoji fəaliyyəti və ən əsası xeyirxah insan və bütöv xarakter sahibi olaraq milli ədəbiyyatımız, elm və mədəniyyətimizin tarixində əbədi yaşayan bir Şəxsiyyətdir!

**Ədəbiyyat siyahısı:**

1. Cəlal, Mir. Ədəbiyyatşünaslığın əsasları: Ali məktəblər üçün dərslik / Mir Cəlal, P.Xəlilov; red. F.Hüseynov. – Bakı: Maarif, – 1972. – 280 s.

2. Cəlal, Mir. Qayğılar (roman və hekayələr) / Mir Cəlal. tərt. E.İmanbəyli – Bakı: Zərdabi Nəşr, – 2021. – 244 s.
3. Əlimirzəyev, X. Mənəvi borc / X.Əlimirzəyev. – Bakı: Nurlan, – 2006. – 192 s.
4. Həsənov, O. Mir Cəlalın novellaları haqqında // Ədəbiyyat. – 1939, 30 yanvar.
5. İsmayılov, Y. Mir Cəlal: Seçilmiş əsərləri / Y.İsmayılov. – Bakı: Şərq-Qərb, – 2005. – 381 s.
6. Mir Cəlal. Xallı muncuq, Ölü soyan // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond № 1, siyahi № 2, – saxlanma vahidi 42.
7. Mir Cəlal. Qayğı, Zirəklik, Yanşaq // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond № 1, siyahi № 2, – saxlanma vahidi 39.
8. Mir Cəlal. Oturaqlar // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond №1, siyahi № 2, – saxlanma vahidi 63.
9. Mir Cəlal. Ulduz kəndinin şəfəqləri, Tərpənir, Söylənməyən nitq, Sünbül, Sorağın gəlsin // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond №1, siyahi № 2, – saxlanma vahidi 61.

**Ayten Gazanfar Aliyeva**
*Doctor of Philosophy in Philology*
Head of the Bibliography Department of the
Central Scientific Library of ANAS

## LITERARY THOUGHT AND STYLISTIC ISSUES IN MIR JALAL'S NEWLY DISCOVERED SHORT STORIES

### Abstract

Mir Jalal Pashayev is presented as a multifaceted creative figure who made significant contributions to the development of prose and literary criticism in Azerbaijani literature. This article provides a comprehensive analysis of the ideological and aesthetic characteristics of the writer's work, his contributions to the short story genre, and the fundamental components of his artistic style.

Research indicates that Mir Jalal's literary output is based on an organic synthesis of national folklore, classical heritage, and modern literary thought. His short stories are characterized by concise plot structures, the creation of prototypical characters, vivid and natural dialogues, and generalized content. Both in his practical creativity and theoretical works, the writer defined the structural features of the short story genre.

The article emphasizes that the phenomenon of laughter is one of the leading aesthetic categories in Mir Jalal's work. Through humor, satire, and irony, the writer critiqued social contradictions, negative archetypes, and the ideological limitations of the era using subtle artistic methods. In this regard, a unity of critical realism and romantic sincerity is observed in his stories.

The study also highlights the author's enlightenment ideas, pedagogical activities, and his specific attitude toward the image of the "teacher". In Mir Jalal's works, education, the responsibility of the intellectual, and national-moral values emerge as crucial thematic directions.

Furthermore, the recovery of the writer's long-unpublished short stories and their introduction into literary circulation allows for a more complete evaluation of his creative legacy. These examples further confirm the stability of Mir Jalal's style, the simplicity and expressiveness of his language, and the functional role of artistic laughter.

In conclusion, Mir Jalal Pashayev's work occupies an essential place in the developmental stages of 20th-century Azerbaijani prose, and his artistic-aesthetic conception holds significant scientific and practical relevance for contemporary literary studies.

**Keywords:** Mir Jalal Pashayev, Azerbaijani literature, 20th-century prose, short story genre, artistic style, unpublished stories

**Айтен Газанфар гызы Алиева**
*Доктор философии по филологии*
Заведующая отделом библиографии
Центральной научной библиотеки НАНА

**Аннотация**

Мир Джалал Пашаев представлен как многогранная творческая личность, внесшая значительный вклад в развитие прозы и литературоведения Азербайджана. В статье комплексно анализируются идейно-эстетические особенности творчества писателя, его вклад в развитие жанра рассказа и основные компоненты его художественного стиля.

Исследование показывает, что художественное творчество Мир Джалала основывается на органическом синтезе национального фольклора, классического наследия и современного литературного мышления. Его рассказы отличаются лаконичной сюжетной структурой, созданием типичных образов, живыми и естественными диалогами, а также обобщающим содержанием. Как в своей практической деятельности, так и в теоретических трудах писатель определил структурные особенности жанра рассказа.

В статье особо подчеркивается, что одной из ведущих эстетических категорий творчества Мир Джалала является феномен смеха. Посредством

юмора, сатиры и иронии автор тонкими художественными методами критиковал социальные противоречия, отрицательные типажи и идеологические ограничения эпохи. С этой точки зрения в его рассказах наблюдается единство критического реализма и романтической искренности.

В исследовании также выдвигаются на первый план просветительские идеи автора, его педагогическая деятельность и особое отношение к образу учителя. Образование, ответственность интеллигенции и национально-духовные ценности выступают в качестве важных тематических направлений в произведениях Мир Джалала.

Кроме того, выявление долгое время не публиковавшихся рассказов писателя и их введение в литературный оборот позволяют более полно оценить его творческое наследие. Эти образцы также подтверждают стабильность стиля Мир Джалала, простоту и выразительность его языка, а также функциональную роль художественного смеха.

В заключение следует отметить, что творчество Мир Джалала Пашаева занимает важное место в этапе развития азербайджанской прозы XX века, а его художественно-эстетическая концепция представляет актуальную научно-практическую значимость для современного литературоведения.

**Ключевые слова:** Мир Джалал Пашаев, азербайджанская литература, проза XX века, жанр рассказа, художественный стиль, неопубликованные рассказы

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Əkrəm Bağırov**